

MƏZAHİR İSGƏNDƏR

# AĞLADIĞIN GÜN OLACAQ

Yetər, ey zalimi-şər!.. Yetər, içdin türk qanını!
Zülm edib, bir doymadın, odlara yaxdın canını,
Qafil, aç gözlərini, vaxtdı, düşün son anını!
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!

Anamın göz yaşıdı, buludlar göydən səpələr,
Süd olan döşdü bilib, süngünü əmdi körpələr,
İntiqam və qan deyər bu düzlər, dağlar, təpələr,
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!

Yetmədi kamə bacım, qəhr elədin toy gecəsin,
Ər oğlu ərənlərin qəbrə kömdün sən neçəsin,
Atlanıb cəng eləsəm, çıxmayacaq heç də səsin,
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!

Ey köpək, arxan ilə bəsdi ki tüğyan elədin,
Taladın torpağımı, lap da lüt-üryan elədin,
Atıb odlara məni, yetər ki biryan elədin,
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!

Əlində bayraq edib ol babanön tay qulağın,
Tərs minib, tərsə baxıb, tərsinə çapdın ulağın,
Tələsən tərsə düşər, qoy eşitsin kar qulağın,
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!

Oğuzun oğulları hər biri bir od olacaq,
Ər olan ər doğurar, ərdən olan Qurd olacaq,
Yar olar Tanrı bizə, bu yurd Bütöv Yurd olacaq,
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!

Göstərib buynuzunu, güvənmə çox heybətinə,
Mən Bəzzəm, Əlincəyəm, dünya bələd qeyrətimə
Qeyrətin bəlli sənin, tülküsən düşsən çətinə,
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!

Yanar ol anan sənin, gər söyləsəm mən qana-qan,
İşlədib küt başını, aç gözünü, bir bunu qan,
Ey özün qalib sanan, yatmısan, qəflətdən oyan!
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!

Mən türkəm!.. Türkü deyib, türklüyümə güvənmişəm,
Doğulub at üstündə, cəngi deyib,bələnmişəm,
Ərdən ər, nərdən nərəm, sanmaginən ələnmişəm,
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!

Allah, Allah söyləyib, duracaqdır Azərbaycan,
Cəng edub, küt başını vuracaqdır Azərbaycan,
Yas deyil, bir toy-büsat quracaqdır Azərbaycan,
Sevinib, gülmə yağı, dolmayan səbrim dolacaq,
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!
Oğuzun qeyzi yaman, ağladığın gün olacaq!!!

**Qeyd:** Şeir Ermənistanın baş naziri Paşinyanın işğal altında olan Qarabağın göz muncuğu Şuşanın Cıdır düzündə yallı gedib, oynadığı gün yazılmışdır.

# OYAN, EY TÜRK BALASI

Oyan, ey türk balası!.. Qalx ki atın kişnəmədə,
Çeynıyib bax cilovun, dil-dodağın dişləmədə,
Zarıyıb, yanı qalıb, bunca günah işləmə də,
Cəng edib, "Cəngi" gedən, meydana yardan yar olar,
Türkə ah, nalə, fəğan, göz yaşı ardan-ar olar!

Silkinib, nərə çəkib, qalx ki səbr vurdu təbil,
Gey döyüş köynəyini, hərb nədi, nənnidə bil,
Hərləyib şeşpərini, söz ilə min fəndi də bil,
Kəsilən əzm ilə yol düşməni dardan-dar olar,
Türkə ah, nalə, fəğan, göz yaşı ardan-ar olar!

Söykənib sən dizə qalx!.. Qalx ki yarı millətinə,
Kim edər bunca hünər, ol yetər hürriyyətinə,
Bilməyən milləti nə, ya da ki ülviyyəti nə,
Ola lap Rüstəmi-Zal, bülbülü-zardan zar olar,
Türkə ah, nalə, fəğan, göz yaşı ardan-ar olar!

Uyumaz ruh da əgər, gəzsə yağı torpağını,
Qıyamaz əldə qala bir otunu, yarpağını,
Çəkəyin bəs necə biz söylə, namus, ar dağını?
Şan gedə, şöhrət itə, tapmayan xardan-xar olar,
Türkə ah, nalə, fəğan, göz yaşı ardan-ar olar!

Qalx!.. Bilək qiymətini, qədrini türk kürkümüzün,
İtidək dişlə ucun korta qalan süngümüzün,
Sala od bəlkə cana, səs-sədası türkümüzün,
Ər olan, ər doğuran, ər doğan ərdən-ər olar,
Türkə ah, nalə, fəğan, göz yaşı ardan-ar olar!

# GÖRMƏDİM

Qeyrətdən, namusdan dəm vuranların
Nə həyasın, nə də arın görmədim!
Çox təpələr "dağam" dedi özünə,
Nə dumanın, nə də qarın görmədim!

Gün görmədi çox işləyib, çalışan,
Yana-yana külə döndü alışan,
Yetən dedi bağbanam, bağ salmışam,
Almasın, heyvasın, narın görmədim!

Qadından çox kir-kişidi bəzənən,
Bilinmir kişidi, ya da bir zənən,
Dinən deyir sazandaram, tarzənəm,
Əldə sazın, nə də tarın görmədim!

Azaldı sayısı düz gedənlərin,
Eşq edib, eşqiylə iz edənlərin,
Özünü Məcnuna bənzədənlərin
Leyli təki olan yarın görmədim!

Ay Məzahir, yazdığını düz oxu,
Düz mil ilə düz ilmə vur, düz toxu,
De, var gündə məndən gördü üz çoxu,
Heç birinin etibarın görmədim!

# MƏNİM

Mən kiməm, nəçiyəm, hardan biləsən?
Ünvanım lal-dinməz dağlardı mənim.
Eşqim, məhəbbətim qələm-dəftərim,
Sevgilim söz dolu çağlardı mənim.

Günüm, ayım, nə də yaşım bilinməz,
Torpağım bilinməz, daşım bilinməz,
Olan gündən göz yaşlarım silinməz,
Sağım da, solum da ağlardı mənim.

Mən təki dağılan, viran olmadı,
Od tutan, alışan, biryan olmadı,
Anlayan olmadı, duyan olmadı,
Olsaydı, bir yaram bağlardı mənim.

Təmizdi niyyətim, pakdı fitrətim,
Var öz şeiriyyətim, öz zehniyyətim,
Nə yazıq ki bilinmədi qiymətim,
Qismətim tərsinə çarxlardı mənim.

Ay Məzahir, döz barı, bu yükə də,
Sazın, sözün qıyma boynun bükə də,
De ki bir gün köçüb getsəm, bəlkə də,
Nəsillər sözümü haxlardı mənim!

# OĞUZ ELİ TALANDI

Bağçamızda açan güllər soldu, hey!
Elim eldən, dilim dildən oldu, hey!
Qız-gəlinlər saçlarını yoldu, hey!
Hey gəlmədi, dərd üstə dərd qalandı,
Gəl, Oğuz xan!.. Oğuz eli talandı.

Əlacımız bir həlli yox kəsirdi,
Köçən köçdü, köçməyənlər əsirdi,
Yurdda qalan həsir, məmmədnəsirdi,
Haqq quylandı, zəfər çalan yalandı,
Gəl, Oğuz xan!.. Oğuz eli talandı.

Mən Selcana, mən Burlaya bir ərdim,
Qılıncla, qalxanla ömür sürərdim,
Bu sualı Ləng Teymura, Bəyazidə verərdim:
Kim odlandı, kim alışdı, kim yandı?
Gəl, Oğuz xan!.. Oğuz eli talandı.

Hanı Tomris, hanı anam anası?
Bacım əsir, əldə gəlin hənası,
Kim ağlasın, kim saxlasın bu yası?
Gözümüzdən su yox, axan al-qandı,
Gəl, Oğuz xan!.. Oğuz eli talandı.

Bu ulayan indi o Bozqurddumu?
Çaqqal-çuqqal aldı üstün yurdumun,
Tanrım, zəfər saatımız durdumu?
Susdu qopuz, sındı qılınc... o andı,
Gəl, Oğuz xan!.. Oğuz eli talandı.

Edib bizi bir qoşa zər, atan kim,
Oynayan kim, uduzan kim, udan kim,
Kim çıxacaq bu bulanıq sudan, kim?
Lal suallar lap üst-üstə qalandı,
Gəl, Oğuz xan!.. Oğuz eli talandı.

Adı cana dün od salan bu Türkün,
Tanrı payı bir ad alan bu Türkün,
Türklüyündən adı qalan bu Türkün
Attilaya, Meteye var son andı,
Gəl, Oğuz xan!.. Oğuz eli talandı!
Gəl, Oğuz xan!.. Oğuz eli talandı.

# TƏLATÜMDƏYƏM

İçimdə, çölümdə bir təlatüm var,
Nə göz yumub, nə olmaram bircə ram.
Ay Allah, əlimə qələm alandan
Olub mənə yuxular da day, haram.

Ay Allah, əlimə qələm alandan
Od tutub, yanıram öz nəfəsimdən.
Göz qapanıb, çimirini almamış,
Oyanıram bir yarpağın səsindən.

Od tutub, yanıram öz nəfəsimdən,
Sanki bir dənizəm kükrəyəcəyəm.
İndicə... indicə... elə indicə
Olub da bir vulkan, püskürəcəyəm.

İndicə... indicə... elə indicə
Bir dəli şimşəklər çaxar başımda.
Ya deyərəm bu dünyaya əlvida,
Ya olaram yenə on beş yaşında.

Bir dəli şimşəklər çaxar başımda,
Haldan-hala düşüb, fikrim hallanar.
Gah süvar olaram, gah Qırat, Dürat,
Öz əlimlə ayaqlarım nallanar.

Gah süvar olaram, gah Qırat, Dürat,
Çaparam da bu dünyadan uzaqda.
Çaparam, çaparam... Dönmərəm geri,
Mənə diş qıcartsa min yalquzaq da.

Çaparam da bu dünyadan uzaqda,
İçim, çölüm bu dünyayla barışmaz.
Ocağımız, nə odumuz, qorumuz
Nə külümüz bir-birilə qovuşmaz.

Mən dünyayla, dünya mənlə barışmaz,
Nə mən ona, nə o mənə gül atar.
Ötərik, keçərik salam-kəlamsız,
Bilinməz, kim hələ murada çatar...

...Özüm dəniz, özüm qayıq, özüm yel,
Mən özüm özümə çəkərəm avar.
Ay Allah, əlimə qələm alandan,
İçimdə, çölümdə bir təlatüm var!..

# İNSANLIĞI İTİRMƏ

Bu dünyaya beşcə günə gəlmişik,
Gəlib, gedib, dönüb yenə gəlmişik,
Nə imana, nə də dinə gəlmişik,
Tövrat, Zəbur, İncil, Quran xətrinə,
İnsan oğlu, insanlığı itirmə!

İnsan olub, insanlığa əyil sən,
Yol tut, eylə insanlığa meyil sən,
Sən insansan, bir daş, qaya deyilsən,
Gül ək, gül ol, qarış gülün ətrinə,
İnsan oğlu, insanlığı itirmə!

Qoy axmasın əlimizlə qanımız,
Od tutmasın, alışmasın canımız,
Adəm atamızdl, Həvva anamız,
Bu dostluğu, qardaşlığı bitirmə,
İnsan oölu, insanlığı itirmə!

Bəsdi bu kin, bəsdi qəzəb, ədavət,
Bəsdi bu qan, bu göz yaşı, xəyanət,
Yandı dünya, qalmadı bir əyalət,
Dur!.. İnsana insan əti yedirmə,
İnsan oğlu, insanlığı itirmə!

Bəsdi nalə, bəsdi fəryad, ahu-zar,
Bəsdi ağrı, bəsdi sancı, bu azar,
Qoy qalmasın qiyamətə bu bazar,
Bil insan nə, insanlığın qədri nə,
İnsan oğlu, insanlığı itirmə!

# BU YAZINI ƏL SİLƏMMƏZ

Biləmməzsən məni, ey kəs,
Mən olmayan, məni bilməz.
Mən olmayan qəm çəkəmməz,
Mən olan, nəşəni bilməz.

Mən həm dənəm, həmi zəmi,
Səpən, biçən, döyən həmi,
Görən, sanar dəli məni,
Deyər, bir də bu düzəlməz!

Mənəm, mənə olan qənim,
Mənəm, mənim həm həmdəmim,
Mən həm qəbrim, həm kəfənim,
Mən, məndən də can diləmməz!

Mən həm qönçə, həmi güləm,
Gül üstündə həm bülbüləm,
Odam, közəm, həmi küləm,
Üzərimə su çilənməz.

Bayatı mən, ağı mənəm,
Şeir-sənət bağı mənəm,
Həm göz, gilə yagı mənəm,
Biri gülər, biri gülməz.

Mən həm mənli, həm mənsizəm,
Həm güvənli, güvənsizəm,
Düzənliyəm, düzənsizəm,
Kimsə məntək silkələnməz.

Mən həm naşı, həmi mahir,
Mən həm gizli, həmi zahir...
Yazı budu, ay Məzahir,
Bu yazını əl siləmməz!

## TANRI YOLU BUYUDUMU?

Sən məni, mən səni kəsdik,
Nə titrədik, nə də əsdik,
Hər an şərə biz tələsdik,
Tanrı yolu buyuydumu?

Xəncərlədik, oxladıq biz,
Qan içib, qan qoxladıq biz,
Haqq olandan qorxmadıq biz,
Tanrı yolu buyuydumu?

Tapdaladıq iman daşın,
Yaraladlq inam başın,
Qardaş unutdu qardaşın.
Tanrı yolu buyuydumu?

İnildədi hər tikəmiz,
Azalmadı bir hikkəmiz,
Haram yol oldu Məkkəmiz,
Tanrı yolu buyuydumu?

Arı satdıq, xosunlaşdıq,
Namus getdi, yogunlaşdıq,
Şər-şeytana uyğunlaşdıq,
Tanrı yolu buyuydumu?

Nə utandıq, nə bir çaşdıq,
Qeyrəti pulla anlaşdıq,
Nə durduq, nə insanlaşdıq,
Tanrı yolu buyuydumu?

Aralandıq yar ilə biz,
Sarıldıq əğyar ilə biz,
Sormadıq haqq dililə biz:
Tanrı yolu buyuydumu?

## İSTƏMİŞƏM

Dünya, qarın, qışın oldu,
Bir gün də yaz istəmişəm.
Əlim açıb, dağ boyda yox,
Həmişə az istəmişəm.

Boğmaladın, boğdun, yetər,
Daha olma bundan betər,
Təptəzə söz, qələm-dəftər,
Bir telli saz istəmişəm!

Bir gün doğub üzümə dan,
Nə olar ki mən alam kam?
Gözəllərdə ədəb-ərkan,
Azca da naz istəmişəm.

Ürəyimdə arzum mincə,
Gün görmədim, qəm əmincə,
El-obanın ürəyincə
Bir xoş avaz istəmişəm.

Heç salmadım vara meyil,
Dünya malı çara deyil,
Günlərimi qara deyil,
Həm də bəyaz istəmişəm.

Sirrin verməz bu yollar da,
Gedən, gələn yorular da,
Gedib-gələn bu yollarda
Mənə həmraz istəmişəm.

Məzahir olmadı qəmsiz,
Dil naləsiz, gözü nəmsiz,
Dünya, səndən bir sərhədsiz,
Simsiz Araz istəmişəm!

## SORUŞUN

Göz yaşlarım nə qədərdi? -
Çağlayan seldən soruşun!
Yerim, məkanın nərdədi! -
Tufandan, yeldən soruşun!

Sevincimdə təkdən-təkdim,
Bal dolusu bir pətəkdim,
Kaman oldum, nələr çəkdim? -
İnləyən teldən soruşun!

Nə ah çəkib, nə bir yandım,
Sevdim, için-için yandım,
Bülbül oldum, nə qazandım? -
Çiçəkdən, güldən soruşun!

Mən haqq deyib, tox olmuşam,
Nə bir durub, nə qorxmuşam,
İndi nədən soluxmuşam? -
Sınan könüldın soruşun!

İllər ili əsir aldı,
Gündən-günə yol daraldı,
Məzahirdən nələr qaldı? -
Hay vurub, eldən soruşun!

## QOXLA MƏNİ

Ey kəs, çəkmə imtahana
Nə olar, var-yoxla məni!
Düz ilqarda, sədaqətdə
Yoxla məni, yoxla məni!

Bir dar gündə dostu atsam,
Duz-çörəyə haram qatsam,
Arsız olub, arı satsam,
Oxla məni, oxla məni!

Məzahir der, bəməm, ziləm,
Tüm dağ-daşa, düzə diləm,
Hər fəsildə təzə güləm,
Qoxla məni, qoxla məni!

## GƏRƏK

*Bəzi şair dostlara*

Gər dost ola bir kəs mənə,
Od yeyib, od içə gərək!
Od geyinə, od yolları
Oda dönüb, keçə gərək!

Məhşər çəkə, yana hər yan,
İstəməyə bir an aman,
Bilməz ola məkan, zaman,
Nə gündüz, nə gecə gərək!

Yuxularda görə yuxu,
Qan görməyə rəngi-rufu,
Əzizləyib sevə yoxu,
Yox deməyə heçə gərək!

Gen dolanın, məni danın,
Nə odlanın, nə də yanın,
Məzahirlə dost olanın
Canı bir yox, neçə gərək!

# YOLUM ULU YOLUDU

Nişan alıb, atıb ox,
Ey kəs, məni yorma çox,
Ac olsam da, gözüm tox,
Süfrəm dolu kimidi!

Bir ağacam, ay dəli,
Min budaqlı, şaxəli,
Əlim haqqın sağ əli,
Qolum qolu kimidi!

Yolum Həsən, Hüseynin,
Hürrün yolu kimidi.
Şükür!.. Deyən, ay Allah,
Yolum ulu kimidi!

# O AD MƏNƏM

Allah!.. Allah, öz-özünə
Həmi doğma, həm yad mənəm!
Həmi əldə gül dəstəsi,
Həmi dildə fəryad mənəm!

Həmi atam, həmi nalı,
Kimsə olmaz məndən halı,
Həm qənd, şəkər, beçə balı,
Həm acı, həm şor dad mənəm!

Həm ovçu, həm vuracağı,
Həm yolçu, həm duracağı,
Zar ocağı, yar qucağı,
Həm dağ, külüng, Fərhad mənəm!

Həm Tur dağı, İrəm bağı,
Həm kök, budaq, həmi şaxı,
Daş dövrü, həm dəmir çağı,
Həm təptəzə, boyat mənəm!

Kim yol, cığır, kim bağ salar,
Kimi qəlbə min dağ salar,
Qurd oğlu qurd çağırsalar,
Məzahir, de, o ad mənəm!

# ELƏ ÖP Kİ SƏN

*Ah, solan cavanlıq, solan cavanlıq!*
*Ölümüm çatıbsa, ölərəm, nə qəm!?*
*Nəfəsim qalıbsa gülüm, bir anlıq,*
*Yenə dodağından öpmək istərəm!*
***Sergey Yesenin***

Öp məni!.. Öp məni!.. Elə öp ki sən!..
Vurma da üzümə, yaşa dolmuşam.
Ah, gülüm, bölünüb neçə min kərəm,
Səninlə tamlanıb, özüm olmuşam.

Öp məni!.. Öp məni!.. Elə öp ki sən,
Şimşəklər at çapsın mənim başımda.
Eşqinlə talanıb, olub tarimar,
Qalmasın torpağım, nə bir daşım da.

Öp məni!.. Öp məni!.. Elə öp ki sən,
Nəfəsim kəsilsin, səsim də batsın.
Bu öpüşün od-alovu, atəşi
İçimdəki duyğuları oyatsın.

Öp məni!.. Öp məni!.. Elə öp ki sən,
Çay olub, kükrəyib, daşım təzədən.
Dağılsın bənd-bərə, dağılsın hər sədd,
Açılsın yan-yörəm, qarşım təzədən.

Öp məni!.. Öp məni!.. Elə öp ki sən,
Bir qarlı qışda da sanım yazam mən.
Bu anın eşqinə dindirib də saz,
Gecə də, gündüz də nəğmə qoşam mən.

Öp məni!.. Öp məni!.. Elə öp ki sən,
Sanım da yenidən onbeşimdəyəm.
Sanım da yenidən düşüb yollara,
Bir nazlı-qəmzəli qız peşindəyəm...

...Hələ də, hələ də xəyallarımda
O gülsən, çiçəksən, o əzəlkisən.
Məni də özümə qaytarmaq üçün
Öp məni!.. Öp məni!.. Elə öp ki sən!..